# Tələbələrin yeni şəraitə uyğunlaşmasının onların özünüqiymətləndirməsi və idrak fəallığına təsiri

**Yaqut Ağasiyeva**
*BDU-nun fəlsəfə doktoru hazırlığı üzrə dissertantı*
**E-mail:** ququ-85@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. N.T. Rzayeva,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözlər:** uyğunlaşma, idrak fəallığı, özünüqiymətləndirmə, təlim mühiti
**Ключевые слова:** адаптация, познавательная активность, самооценка, среда обучения
**Key words:** adaptation, cognitive activity, self-assessment, learning environment

Tədqiqatlar göstərir ki, tələbələrin böyük əksəriyyəti yüksək göstəricilərlə ali məktəbə qəbul olsalar da, özünüqiymətləndirmənin aşağı düşməsinə və idrak fəallığı göstərmələrinə mane olan bir sıra səbəblər var. Həmin səbəblər içərisində uyğunlaşma problemi əsas yer tutur. Burada söhbət ümumi mənada orqanizmin dəyişən şəraitə uyğunlaşması prosesindən gedir. Bu anlayış XIX əsrin ortalarında bioloji anlamda yaranıb. XX əsrin əvvəllərindən psixologiyada geniş istifadə edilməyə başlanıb (5).

Elmi mənbələrdə uyğunlaşmanın bioloji, psixoloji, sosial və pedaqoji səviyyələri fərqləndirilir (J.Piaje, K.Levin, A.Adler, V.V.Davıdov, İ.S.Vıqotski və b.). Psixologiyada bu sahədə aparılan tədqiqatlarda məsələyə hiss orqanlarının ona təsir göstərən qıcıqlayıcılara uyğunlaşması, idrak proseslərinin təlim hərəkətlərinə uyğunlaşması, qarşılıqlı assosiativ əlaqələrin qurulması, yüklənməyə alışması və d. istiqamətlərdə yanaşılır. Onun daha bir forması sosial uyğunlaşmadır. Sosial uyğunlaşmada insanın özünün davranış modellərini mövcud olduğu sosial mühitə görə nizamlaması nəzərdə tutulur (4). Tələbələrin özünüqiymətləndirməsinin və idrak fəallığının inkişafında uyğunlaşmanın roluna sosial uyğunlaşma kontekstində yanaşmanı nəzərdə tutmuşuq.

Müşahidələr göstərir ki, uyğunlaşma prosesi, hər şeydən əvvəl, fərdi xüsusiyyətlərdən asılıdır. Yeni kollektivə yüksək fiziki və psixoloji hazırlığı olanlar daha tez uyğunlaşırlar. Bununla belə, tələbələrin yeni təhsil mühitinə uyğunlaşması həmişə uğurlu olmur. İstənilən şəxs bu və ya digər dərəcədə yeni şəraitə uyğunlaşmaqda çətinlik çəkir. Bəzilərində bu proses tez keçsə də, digərlərində çətinliklə gedir və bu onların özünüqiymətləndirməsinin tədricən aşağı enməsinə səbəb olur. Nəticədə yüksək göstəricilərlə ali məktəbə daxil olmasına baxmayaraq tələbə dərslərdə fəallıq göstərmir.

Uyğunlaşmanın ləng getməsinin bir səbəbi də mühitin natamamlıqları ilə bağlıdır, ancaq burada bəhs olunan natamamlıqları idarəedənlər doğurur. Deməli bu şəraitə görə əsas məsuliyyəti onlar daşıyırlar. Ali məktəbdə tələbələrin dekanlıq və kafedraların əməkdaşları, müəllimlərlə münasibətləri düzgün qurulmalıdır. Başqa bir səbəb tələbənin yaşayış şəraitindən asılıdır. Bəzən tələbə kirayədə qalır, bəzən onunla birgə yaşayan şəxslərlə münaqişələri yaranır. Başqa bir səbəb tələbənin səhhətində yaranmış problemlər ola bilər. Bu faktorları bir neçə qrupa bölmək olar:

— fərdi: xarakter, temperament, motivasiyasızlıq, idrak marağının zəif olması və ya olmaması, iradi səyin olmaması, koqnitiv hərəkətlərin icrasında çətinliklər, fərdi üslubun təlimin yeni tələblərinə uyğunlaşmaması və s.);

— tələbənin demoqrafik problemləri, ailə tərbiyəsi: ailədə ölüm, işsizlik, xəstəlik, nəzarətsizlik;

— pedaqoji şərait: təhsilin texnologiyaları və növlərinin uyğunsuzluğu, professor-müəllim heyətinin tələbələrlə qarşılıqlı əlaqələrinin arzuolunmaz vəziyyəti (6).

Tələbələrin ali məktəb həyatına uyğunlaşmasına mane olan başlıca amillərdən biri də fəaliyyət növünün dəyişməsi ilə bağlıdır. Bu vəziyyət, xüsusilə aşağı özünü-qiymətləndirməsi olan, tez həyəcanlanan, ətraf aləmdə baş verənləri qavramaqda çətinlik çəkən, eləcə də əksinə, yüksək fəallığı olanlar üçün daha xarakterikdir. Tələbənin ali məktəb həyatına qədəm qoyması bir sıra psixoloji çətinliklərə səbəb olur. Onun səbəbləri fərqli olsa da, başlıcası fəaliyyət növünün dəyişməsi, yeni mühitə düşməsi, yeni kollektivə alışması ilə bağlıdır. Ona görə də I kurs tələbələrin peşə təhsilində, həyatında ən böhranlı mərhələlərdən biri hesab edilir. Onlar birdən-birə ailə həyatından ayrılaraq rahat şəraitdən ali məktəb həyatının ağır rejiminə düşür: yeni münasibətlərə girir, yeni qiymətləndirmə normaları ilə üzləşirlər: professor-müəllim heyətinin şəxsiyyəti, birləşmələrdə görüşdükləri digər qruplarda təhsil alan yaşıdlar, gün rejiminin, qida rejiminin dəyişməsi, hərəki fəallığın məhdudlaşması, maddi çətinliklər, alışmadıqları öhdəliklərin meydana gəlməsi və s. Bununla yanaşı, tələbələr yeni tədris qaydalarını, ixtisas fənləri ilə bağı olan və olmayan irihəcmli nəzəri materialları mənimsəməli olur, elmi mənbələri əldə etmək çətinlikləri ilə üz-üzə qalırlar. Bu da tələbələrin emosional vəziyyətinə mənfi təsir göstərir. Bəzilərində, hətta, özləri ilə bağlı olan qiymətləndirmə səviyyələrində ziddiyyətlər yarana bilir, özünüqiymətləndirmə aşa-ğı enir, idrak fəallığına olan tələbat zəifləyir.

Məhz buna görə də həmin dövrdə tələbələr üçün əlverişli şəraitin, münasib psixoloji iqlimin yaradılması vacibdir. Psixoloji tədqiqatlar göstərmişdir ki, müsbət psixoloji iqlim tələbələrin ali məktəb şəraitinə asanlıqla alışmaları ilə yanaşı onların özünüqiymətləndirməsini sabit saxlamaqla və inkişaf etdirməklə idrak fəallığını da təmin etmiş olur. Belə olduqda hər bir tələbənin fərdi psixoloji xüsusiyyətlərinin inkişafı üçün əlverişli zəmin yaranır. Kollektiv üzvlərinin tələbəyə, eləcə də əksinə, ayrı-ayrı tələbələrin kollektivə alışması müsbət istiqamət alır.

Bu məsələləri real şəraitdə öyrənmək üçün psixoloji müşahidələr apardıq. Müşahidələrimizi tədris ilinin I yarısında ADPU-nun I kurs coğrafiya, təhsildə sosial-psixoloji xidmət və məktəbəqədər ixtisaslarında təhsil alan 135 (6 qrup) tələbə üzərində apardıq. I kurslarda apardığımız müşahidələrdən aydın oldu ki, ilk həftələrdə tələbələrin bir qismində kifayət qədər psixoemosional problemlər yaşanır. Onlar I semestr ərzində ali məktəbə, həmyaşıdlarına alışırlar. I kurslarda hələ sentyabrın sonlarında referent qruplar formalaşır. Bununla belə, müxtəlif səbəblərdən onların tərkibi dəyişməyə başlayır. Bəzi qruplarda isə əsas tərkib qorunub saxlanılır. Bir qisim tələbələr asanlıqla uyğunlaşsalar da, digər qisimdə bu üçün daha uzun müddət tələb olunur. Davranışları və idrak fəallığının təlim şəraiti ilə uyğunlaşması çətin gedir. Yeni qaydalara çətin alışır, çətin ünsiyyət qurur, mühazirə və seminar məşğələlərindən yayınır, dərs buraxırlar. Həmin tələbələrdə aksentuasiyalı xarakter əlamətləri, ailə tərbiyəsindən doğan neqativ affiliasiya elementləri, gərgin emosional hallar müşahidə edilmişdir.

Ali məktəbdə tədris prosesi daha çox kollektiv formada aparılır. Ona görə də ali məktəbə daxil olarkən tələbə digər həmyaşıdları, xüsusilə referent qrupların üzvləri ilə ünsiyyətə girmək bacarığına yiyələnməlidir. Qarşılıqlı dostluq əlaqələrinin formalaşmasında professor-müəllim heyəti də az rol oynamır. Gərginlik içərisində yaşayan, tez-tez ailə münaqişələri ilə üzləşən tələbələrin psixoloji durumu da neqativ emosional vəziyyətdə olur. Belə tələbələr, ya

hədsiz emosionallıq göstərir, ya da qaradinməz, çəkingən olur, tənhalığa meyl edirlər. Hər iki hal onların psixoloji durumunda neqativ hallar əmələ gətirir. Belə tələbələr kifayət qədər yüksək formalaşmış idrak fəallığı göstərməyə könülsüz yanaşır, özü-nün intellektual funksiyalarını iradi güc hesabına hərəkətə gətirməyə çalışmırlar. Bəzi tələbələr isə, əksinə, möhkəm iradəyə malikdirlər. Ünsiyyətcil, stabil təbiətli, yüksək özünüidarə qabiliyyətlərinə malikdirlər. Bu cür keyfiyyətlərin yaranmasına səbəb, şübhəsiz ki, onlarda özünüreallaşdırma tələbatının güclü olmasıdır. Özünüreallaşdırma tələbatı onu özünüfəallaşdırmaya istiqamətləndirir.

Bunları nəzərə alaraq I kurs tələbələri ilə tədris ilinin II yarısında maarifləndirmə, profilaktika, konsultasiya və korreksiya xarakterli işlər həyata keçirdik. Özünütəhsil bacarıqlarını formalaşdırmaq üçün tələbələri istiqamətləndirdik, müsabiqələr təşkil etdik. Apardığımız işlərin səmərə verib-vermədiyini yoxlmaq üçün K.Rocers və R.Deymondun ”Şəxsiyyətin sosial-psixoloji uyğunlaşmasının diaqnostikası” metodundan istifadə etdik. Nəticədə tələbələri bir neçə qrupda uyğunlaşdırdıq.

I qrup – uyğunlaşması normada olanlar - özünüqiymətləndirmə normaldır: dərs yüklənməsinin öhdəsindən yaxşı gəlir, çətinliklər hiss etmirlər, onların intellekt səviyyələri üzləşdikləri idraki çətinlikləri dəf etməyə imkan verir; müəllimlərlə və qrup yoldaşları ilə yaxşı qarşılıqlı münasibətdə olurlar; ali məktəbin daxili qaydalarına zidd hərəkətlər etmir, intizamı gözləyirlər; fənlərin mənimsənilməsində olduğu kimi, ictimai işlərdə də təşəbbüskarlıq edir, idrak fəallığı göstərirlər.

II qrup – uyğunlaşmada bəzi problemlər yaşayanlar - özünüqiymətləndirmədə qərarsızlıq və qeyri-adekvatlıq var: emosional sahəsində həyəcan, narahatlıq, şübhəlilik, özünəəminsizlik olur; yaşıdlarla və müəllimlərlə münasibətlərini tənzimlə-məkdə çətinlik çəkir; səhhətində problemlər olur; ailəsində demoqrafik problemlər yaşanır.

III qrup - çətinlikləri olanlar - tələbələrdə özünüqiymətləndirmə konkret bir tipdə olmayıb, bəzilərində normal, bəzilərində aşağı, bəzilərində yüksəkdir: əqli yüklənmənin öhdəsindən çətin gəlir, idrak motivi zəifdir; fəallığının quruluşunda vacib olan bir sıra komponentlər: maraq, həvəs, iradi güc zəifdir; intellektual yüklənmə tələb edən fənlərdə və mövzularda özlərini yayındırır, başqa yollar axtarırlar; özünün fərdi üslubundan lazımınca yararlanmır, onu möhkəmləndirməyin yollarını axtarmır; başqalarının köməyindən istifadəyə üstünlük verir. Nəticələri müşahidələrimizlə tutuşdurduqda irəliləyiş olduğunun şahidi oluruq. İrəliləyiş III qrup tələbələrin sayının azalması və I qrup tələbələrin sayının artması ilə təsdiqlənir.

**Məqalənin aktuallığı**. Tələbələrin yeni şəraitə uyğunlaşmasının onların özünüqiymətləndirməsi və idrak fəallığına təsiri çox mühümdür. Bu baxımdan məqalə aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi**. Tələbələrin özünüqiymətləndirməsini sabit saxlamaqla və inkişaf etdirməklə idrak fəallığı təmin edilmiş olur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya^ Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 2003.

2. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008.

3. От рождения до смерти. Под ред. А.А. Реана. М.: Алма-пресс, 2002.

4. Брунер Дж., Олвер Р., Гринфилд П. Исследование развития познава-тельной деятельности. М.: Педагогика, 1971.
5. http://www.altspu.ru/Journal/pedagog_lobova.
6. http://www.psychologies.ru/glossary/01/adaptasiya.

**Я. Агасиева**

## Влияние адаптации учащихся к новым обстоятельствам к их самооценки и познавательной активности

## Резюме

Хотя большинство студентов поступают в высшую школу с высокими показателями, существует ряд причин, которые препятствуют их самооценке и познавательной деятельности. В связи с этим автор проанализировал проблему адаптации студентов к новым обстоятельствам. В статье показаны факторы, влияющие на трудности или легкость адаптации. Было отмечено, что трудности адаптации влияют на самооценку и познавательная активность. Была проведена работа со студентами, у которых проблемы с адаптацией, и методика была применена для изучения результатов.

**Y. Agasiyeva**

## The impact of students' adaptation to new circumstances on their self-assessment and cognitive activity

## Summary

Although most of the students are admitted to high school with high indicators, there are a number of reasons that hinder their self-assessment and cognitive activity. In this regard, the author analyzed the problem of adapting students to new circumstances. Factors affecting the difficulty or ease of adaptation are shown in the article. It was noted that adaptation difficulties affect the self-esteem and the cognitive activity. There was applied works with students, the problems with adaptation, and the methodology used for studying the consequences.

**Redaksiyaya daxil olub:** 28.02.2018